# Amerika din xadimləri ilə görüşdə Azərbaycandakı tolerantlıq mühiti diqqət mərkəzindədir



**Mayın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti, "On iki Həvari Kvorumu"nun üzvü Deyvid Bednar, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin "Yetmiş Həvari Kvorumu"nun üzvü Cek Gerard, Stirlinq Fondunun prezidenti Mayls Hansen və Fondun baş icraçı direktoru Edvard Rou ilə görüşüb.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycandakı tolerantlıq mühitinin, birgəyaşayış mədəniyyətinin dövlət-din konsepsiyasına uyğun daha da möhkəmləndirildiyi, bu sahənin dövlət siyasətinin prioritet istiqamətinə çevrildiyi vurğulanıb. Prezident İlham Əliyev tərəfindən mütəmadi olaraq ölkəmizdəki dini konfessiyaların dəstəklənməsi və fəaliyyətlərində ahəngdarlığın təmin edilməsi məqsədilə islam və qeyri-islam dini icmalarına maddi yardım ayrıldığı, onlar arasında ayrı-seçkiliyə yol verilmədiyi diqqətə çatdırılıb.

Nümayəndə heyətinin üzvləri ölkəmizdəki dinlərarası harmoniya mühitinin əyani şahidi olduqlarını, o cümlədən Azərbaycanın tolerantlıq təcrübəsinin yayılmasının önəmini qeyd ediblər.

Görüş zamanı gələcək layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2024.- 4 may, № 91.- S.6.